# Onkoloji xəstələrin pensiya hüquqları ilə bağlı qanunvericiliyə dəyişiklik ediləcək

Milli Məclisin Səhiyyə komitəsinin aprelin 19-da keçirilən iclasında 6 məsələ müzakirə olunub.

Komitənin sədri Əhliman Əmiraslanov ilk olaraq "Onkoloji yardım haqqında" və "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsini müzakirəyə təqdim edib.

Qeyd olunub ki, qanun layihəsi onkoloji xəstələrin, eləcə də dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərin sosial müavinət və (və ya) əmək pensiyası almaq hüququnu müəyyənləşdirir. Layihə "Əmək pensiyaları haqqında" və "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" qanun layihələrinə uyğunlaşdırma xarakteri daşıyır və xəstəlikdən əziyyət çəkən şəxslərin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edir.

Layihə barədə fikirlərini bildirən Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev diqqətə çatdırıb ki, dəyişikliyə əsasən, "Onkoloji yardım haqqında" qanunun onkoloji xəstələrin sosial müdafiəsinə dair 9-cu maddəsi və "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" qanunun bu xəstəliyə tutulmuş şəxslərin sosial müdafiəsinə dair 9-cu maddəsi yeni redaksiyada veriləcək.

İclasda deputatlardan Rəşad Mahmudovun və İlham Məmmədovun fikirləri dinlənildikdən sonra layihə birinci oxunuşda Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.

Daha sonra komitə sədri Əhliman Əmiraslanov üçüncü oxunuşda olan qanun layihələrini müzakirəyə çıxarıb. Bildirib ki, bunlar "Narkoloji xidmət və nəzarət haqqında" qanunda dəyişiklik edilməsi barədə və "Hərbi qulluqçuların statusu haqqında", "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında", "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda və Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 887 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi"ndə dəyişiklik edilməsi barədə", həmçinin Cinayət, İnzibati Xətalar və Cinayət Prosessual məcəllələrində dəyişikliklər edilməsi ilə bağlı qanun layihələridir.

Komitə sədri vurğulayıb ki, bu beş qanun layihəsinə komitədə və plenar iclasda iki oxunuşda baxılıb və qəbul olunub.

Qanun layihələrinin müzakirələrində deputatlardan Rəşad Mahmudov, Müşfiq Məmmədli, İlham Məmmədov, Məlahət İbrahimqızı, Kamilə Əliyeva fikirlərini bildiriblər, qeyd və təkliflərini səsləndiriblər.

Qanun layihələri üçüncü oxunuşda Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2022.- 20 aprel.- S.4.